HÜQUQ

UOT: 343.3/7 DOI: 10.34826/NAA.2023.25.2.008

# QƏDİM ROMA XÜSUSİ HÜQUQUNUN ƏSAS MƏNBƏLƏRİ

***Qocayev E.A.***
***Bakı Dövlət Universiteti***

*Məqalədə Qədim Roma Xüsusi hüququnun (o, cümlədən müqavilə hüququnun) formalaşmasının tarixi, mənbələri, meydana gəlmə səbəbləri, şərtləri, mahiyyəti və növlərinin xarakterik xüsusiyyətləri qısa şəkildə təhlil edilir. Mövzunun araşdırılması üçün müəllif xronoloji ardıcıllığa uyğun olaraq, Qədim Romada və Bizansda meydana gəlmiş bir sıra əlaqədar məlumat və mənbəni tədqiqata cəlb etmişdir.*

*Burada Qədim Roma hüququnun əsas mənbələri – Kvirit hüququ, On İki Cədvəl Qanunu, Pretor hüququ, I Yustinianın Mülki Hüquq Külliyyatı (Corpus İuris Civilis), digər hüquqi sənədlər, nəzəri və praktiki fikirlər, onların məzmunu, meydanagəlmə səbəbləri, oxşar xüsusiyyət və fərqli cəhətləri nəzərdən keçirilmişdir. Məqalədə Qədim Roma hüququnun ən təkmil sənədlər toplusu – Yustinianın Mülki Hüquq Külliyyatının tərkib elementlərinin təhlilinə xüsusi yer verilmiş və sonda isə Qədim Roma hüququnda mövcud olmuş hüquq növlərinin təsnifləşdirilmişdir.*

***Açar sözlər:*** *Qədim Roma, hüquq, müqavilə, öhdəliklər, adət, kvirit hüququ, On iki cədvəl qanunu, Plebisita, post-klassik dövr, Xüsusi hüquq, pretor hüququ, I Yustinian, "Corpus İuris Civilis", hüquq növləri.*

Müqavilə hüququnun formalaşması və inkişafı uzun tarixi və nəzəri bir yol keçmişdir. Hər hansı bir dövr və cəmiyyətdə müqavilə hüququnun vəziyyətindən danışarkən, mütləq həmin şəraitdə xüsusi hüquq münasibətləri və onun qanunvericilik əsasları nəzərdən keçirilməlidir. Bu mənada, müqavilə hüququ və bütövlükdə xüsusi hüququn formalaşması üçün mühüm baza rolunu oynamış Qədim Romanın hüquq abidələrinin nəzərdən keçirilməsi müvafiq mövzunun öyrənilməsi üçün əhəmiyyətlidir.

Qədim Roma sivilizasiyasının çatdığı ən mühüm nailiyyətlərdən biri də, burada, yaradılmış və bu günədək öz təsirini saxlayan hüquq nümunələridir. Bu mənada, bəzi müasir hüquq (xüsusilə, xüsusi hüquq) məsələlərini tam anlamaq üçün Antik dövr fəlsəfi fikri, hüquq düşüncəsi, hüquq sistemi, institutları və s. başa düşülməsi tələb olunur.

Qədim Yunanıstan şəhər dövlətlərinin Roma tərəfindən işğalı (e.ə. III-II əsrlər) və bundan əvvəl İtaliya və Siciliyada böyük yunan koloniyalarının olması yunan fəlsəfi və hüquqi fikrinin müəyyən elementlərinin varisliyi ilə Roma ictimai fikri, o cümlədən hüquqi düşüncəsinə keçməsi üçün şərait yaratmışdır. Nəticədə siyasi-hüquqi tədqiqatların intensivliyi və hüquq elminin inkişaf mərkəzi tədricən Qədim Romaya keçdi.

Burada hüququn formalaşması və inkişafı prosesi üç istiqamətdə gedirdi. Birinci istiqamət – dövlət və hüququn qanunauyğun əsaslarının işlənib-hazırlanması, ikinci – pozitiv publik və xüsusi hüququn prinsip və normalarının işlənib-hazırlanması, üçüncü – ixtisaslı kadrların (siyasətçilərin, hüquqşünasların, alimlərin) hazırlanmasına yönəlmiş xüsusi hüquq təhsili müəssisələrinin yaradılması idi.

Ənənəvi olaraq, Roma hüququnun inkişaf tarixi eramızdan əvvəl 753-cü ildə Romanın yaranması ilə başlayıb, İmperator I Yustinianın (b.e. 482-565-ci illər) ölümü ilə başa çatması göstərilir. Bu 14 əsrdən artıq dövr müasir tarixşünaslıq və Roma hüququ üzrə mütəxəssislər tərəfindən müxtəlif cür dövrləşdirilmişdir. Siyasi tarix baxımından bu dövrləşmə əsasən aşağıdakı kimi aparılır: Monarxiya dövrü (e.ə. 753-509-ci illər), Respublika dövrü (e.ə. 509–27-ci illər), Prinsipat dövrü (e.ə. 27 - b.e. 284-cü illər) və Dominat dövrü (b.e. 284–565-ci illər) [1].

Roma hüququ – Kvirit hüququ (e.ə. 753-449-cu illər), On İki Cədvəl Qanunu (e.ə. 449-cu il), Pretor hüququ (e.ə. II əsrdən) Şərqi Roma İmperatoru I Yustinianın "Corpus İuris Civilis"-i (b.e. 529-535-ci illəri), digər çoxsaylı hüquqi sənədlər, qanunlar, qərarlar, nəzəri və praktiki fikirlər,

əsərlər və s. özündə ehtiva edən Qədim Romanın hüquq sisteminin məcmusudur. Faktiki olaraq, bu hüquq varisliklə eramızdan əvvəl 753-cü ildə Roma şəhərinin qurulduğu vaxtdan eramızın 476-cı ilində Qərbi Roma imperiyasının süqutuna qədər qədim Roma dövlətində, sonra isə Şərqi Roma (Bizans) İmperiyasında 1453-cü ilə qədər istifadə edilmişdir.

XI-XII əsrlərdə resepsionist hüquq yaradıcılığı başladıqdan sonra yeni nəfəs verilən qədim Roma hüququ bu gün də xüsusi hüququn əsas bünövrəsini təşkil edir və onun anlayışları və terminləri müasir hüquqda (müxtəlif hüquq sistemlərində) birbaşa, dolayı və sinonim mənalarda geniş şəkildə istifadə olunur.

On İki Cədvəl Qanunundan əvvəl (e.ə. 753-449-cu illər), xüsusi hüquq yalnız Roma vətəndaşlarına şamil edilən və dinə bağlı olan Roma vətəndaşları mülki hüququndan (“ius civile Quiritium”) ibarət idi. Qədim Romanın ilk hüququ Sivil (lat. civitas – “şəhər”, civile – “şəhər əhalisi”, “vətəndaş”) və ya Kvirit (qədim romalılar müharibə tanrısı Yan Kviritin şərəfinə özlərini kviritlər adlandırırdılar) hüququ hesab edilir. Qədim romalıların özlərini kviritlər adlandırdıqları üçün Sivil hüquqa bəzən kvirit hüququ da deyilir [2, səh. 7]. Bu hüquq inkişaf etdirilməmiş və ciddi formalizm, simvolizm və mühafizəkarlıq (məsələn, “mancipatio” – beş şahidin iştirakı ilə satış ayini (müqaviləsi) kimi) xüsusiyyətlərinə malik idi.

Hüquqşünas Sekstus Pomponius göstərirdi ki, “Şəhərimiz yaranarkən, insanlar ilk fəaliyyətlərini heç bir sabit qanun olmadan və heç bir sabit hüquq olmadan başlamışdılar” [3]. Belə qəbul edilib ki, ilkin olaraq Roma hüququ ayinlərlə müşayiət olunan Etrusk dininə əsaslanırdı [4].

Qədim Romada hüquq sisteminin formalaşmasına cəmiyyətin sosial-iqtisadi strukturu çox güclü təsir göstərmişdir. Quldarlıq cəmiyyətinin hüquqi düşüncə tərzi burada mövcud olan normalarda çox aydın şəkildə əks olunmuşdur. Roma əhalisi kviritlər (patrisilər) və plebeylərdən ibarət olmaqla, əsasən iki hissəyə bölünürdü.

Kviritlər (Populus Romanus Quiritium) Romanın qədim nəsillərindən olub, bütün hüquqlardan istifadə etmək haqqı olan şəxslər idi. Onlar bu hüquqları (ius civile) doğularkən əldə edirdilər. Qədim Roma ilə bağlı rəmzlərin üzərində məhz patrisilər və onların tamhüquqlu olmalarına işarə edən SPQR (latınca, “Senatus Populusque Romanus” – Senat və Roma xalqı) abreviaturasından geniş istifadə edilirdi.

Eramızın V əsrində Roma imperiyasının mərkəzi şərqə – Yunanıstana köçürüldükdə rəsmi Roma qanunlarında yunan mənşəli bir çox hüquqi anlayışlar meydana çıxdı. Qərbi Roma İmperiyasının süqutundan sonra da Şərqi Roma İmperiyasında qüvvədə qalan Roma hüququnun anlayışları əsasən, latınca, VII əsrdən etibarən isə Şərqi Roma İmperiyasında dövlət dili yunanca olduqdan sonra isə yunan dilində də anlayışların meydana gəlməsi ilə formalaşmışdır.

Qədim Roma xüsusi hüququnun uğurları, ilk növbədə, dövlətin özünün xarakteri ilə bağlı idi. Belə ki, Roma dövləti yeni əraziləri (dövlətləri, ölkələri, xalqları) özünə birləşdirərkən onların hüquqi nailiyyətlərini də öz hüquq sisteminə daxil edə bilmişdi. Buna görə hesab edilir ki, Roma hüququnda Mesopotamiya, Misir, Arami, Assuriya, Yunanıstan və s. ölkələrin qanunlarının xüsusi münasibətləri tənzimləyən hüquq normalarının daha təkmil formaları da öz əksini tapmışdır.

Ümumiyyətlə, inkişaf yolunu və mənbələrini təhlil etdikdə görürük ki, Roma xüsusi hüququnun strukturunu iki əsas sistemə bölmək olar – sivil hüquq (*ius civile*) və pretor hüququ (*ius honorarium*).

Sivil hüququ, xalq (Kvirit) məclisində (sonralar senatda) qəbul olunan hüquq normalarının (qaydaların) məcmusu idi. Yəni, Sivil hüququn mənbələri, əsasən, adətlər və On iki Cədvəl Qanunundan başlayaraq, Respublika dövrünün Senat Şurası tərəfindən qəbul olunan qanun və sənədlərindən ibarət idi. İlk Roma hüquq sistemini təşkil edən bu hüquq, Roma icmasının üzvlərini romalı olmayanlardan ayıran və imtiyazlı edən bir hüquqdur. O, romalılar üçün yaradılmış və yalnız Roma vətəndaşlarına münasibətlərində tətbiq edilirdi.

Qədim Roma hüquqşünası Ulpian hələ III əsrdə qeyd edirdi ki, “Xüsusi hüquq – Təbii hüquq, Xalqlar hüququ və Sivil hüququn qaydalarından ibarət olduğundan üçlü təbiətə malikdir” [5]. Bu bölgüyə əsasən, “jus naturale” (təbii hüquq – E.Q) təbiətin bütün canlılara öyrətdiyi qanundur, çünki bu hüquq təkcə insanlara deyil, həm də, quruda və dənizdə doğulan bütün heyvan və quşlara aiddir. Buna “nikah dediyimiz kişi və qadının ittifaqı, uşaqların doğulması, onların

tərbiyəsi", hətta vəhşi heyvanların belə bildiyi hüquq (qanun) kimi baxılır [6, səh. 1. D.1.1.1.3]. "Jus gentium" (xalqlar hüququ – E.Q) isə bütün xalqların bəhrələndiyi bir hüquq idi. Onun təbii hüquq-dan fərqini asanlıqla başa düşmək olar. Təbii hüquq bütün canlıların, xalqlar hüququ isə yalnız bütün insanların bir-biri ilə münasibətlərinə aiddir [7, səh. 1. D.1.1.1.4]. Bundan əlavə, təbii hüquqdan və xalqlar hüququndan ümumi olaraq ayrılmayan, lakin heç də hər şeydə onları təkrarlamayan "jus civile" (sivil hüquq – E.Q) də var [8, səh. 1. D. 1.1.6]. Onun özəlliyi onda idi ki, o, yalnız Roma vətəndaşları olan şəhər icması ("civitas") arasında münasibətləri tənzimləyirdi. Yəni, şəxslər dairəsi baxımından qeyd olunan digər iki hüquq sahəsindən kifayət qədər məhdud idi.

Əyalətlərin ali hakimiyyət sahibi (inzibati, hərbi, məhkəmə və mülki idarəçiləri) olan pretorlar (magistrlar), öz səlahiyyətləri daxilində bütün bir illik xidmət ili üçün mövcud olan qanunlara və ediktlərə əlavə olaraq, yeni ümumməcburi ediktlər və proqram bəyanatlar verirdilər. Adətən, yeni pretor, həyat şərtlərinə cavab verən belə daimi ediktlərin normalarını qoruyub saxlayır və onlara özünün müvafiq əlavələrini edirdilər. Beləliklə, zaman keçdikcə ediktdən edikt<br>ə keçməklə pretor ediktləri əsasında müəyyən bir hüquq ("jus honorarium" və ya "jus praetorium") toplusu (qanunvericilik küliyyatı) – Pretor hüququ yarandı.

Pretor hüququ – əsasən pretorların yaratdığı qaydalar və normalar məcmusundan ibarətdir. Mənbələri pretorların ediktləri olan, pretor hüququ Roma xüsusi hüququnun ən dinamik inkişaf edən hissəsi hesab olunur [9].

B. e. 125-130-cu illərində hüquqşünas Salvius Yulian imperator Adrianın tapşırığı ilə pretor hüququnun bəzi qərarlarını (müddəalarını, hökmlərini) möhkəmləndirmək məqsədi ilə daimi pretor edikti ("edictum perpetuum") mətnini işləyib hazırladı ki, bu da sonralar dəyişmədən, tarixə Yulian edikti kimi daxil oldu. Eyni zamanda, pretor hüququ sivil qanunvericiliyi ləğv etmədi. Sonuncu praktikada fəaliyyətini dayandırıb "ölü" normalara çevrildi ki, bununla da Roma huququnun dualizmi meydana gəldi. Məsələn, Kvirit mülkiyyəti institutu (sivil hüquq) ilə yanaşı, bonitar mülkiyyət (pretor hüququna əsaslanan) institutu da mövcud idi [1].

Pretor hüququnun təsiri, pretorun nəinki qərarlar qəbul etməsi, həm də konkret işlərdə məhkəmə müdafiəsi məsələlərini əvvəlcədən həll etməsi ilə müəyyən edilirdi.

Pretor edikti, sivil hüquq normalarını rəsmi şəkildə ləğv etmədən, yeni münasibətləri tanımağın yollarını göstərdi və bununla, hüquq yaratma formasına çevrildi. Məhkəmə icraatının rəhbəri kimi, pretor qanuna praktik əhəmiyyət verə və ya əksinə, qanunun müddəalarını qüvvədən sala bilərdi. Sivil hüququn ziddinə iddia və ya iddia əleyhinə etiraz verməklə və ya sivil hüquqa əlavələr etməklə, pretor ediktləri yeni hüquq forması yaratdı.

Çox vaxt məclis (senat) rəhbərinin və ya imperatorun şəxsində qanunverici, sivil hüquq normalarını yeni qanunlarda və yeni konstitusiyalarda əks etdirməyə çalışırdılar.

Sivil hüquq və pretor hüququ arasındakı əlaqə, hər iki sosial tərəfin (Roma vətəndaşı olan və olmayanların) hüququnu şərh edən hüquqşünasların yaradıcılığında da ifadə edilmişdir. Bu məsələyə məhşur hüquqşünasların yanaşmasını bariz şəkildə ifadə edərək, hüquqşünas Martsian, pretor ediktlərini ictimai həyatın tələblərinə və hakim təbəqənin maraqlarına tez cavab verməsi baxımından, sivil hüququn canlı səsi adlandırırdı [9].

Beləliklə, köhnə və formal normalarla yanaşı, ius civile-də mövcud qanunu dəstəkləmək, tamamlamaq və ya düzəltmək üçün sərəncamları elan etmək hüququ olan və hakimlər tərəfindən tətbiq olunan yeni bir hüquq sinifi – "ius honorari" yaradılır [10]. Getdikcə sivil və pretor hüququnun inteqrasiyası və çuğlaşması nəticəsində onlar arasında fərqlər eramızın III əsrinin sonlarına doğru demək olar ki, aradan qalxdı.

Qədim Roma hüququnda digər mühüm məsələ hüquqda bu günə qədər əhəmiyyətini saxla-mış – xüsusi və publik olmaqla, onun iki hissəyə bölünməsi idi. Artıq On iki Cədvəl Qanunlarında [5, səh. 57-77]. Livinin, Qayın, Ulpianın, Pavelin, Papininanın və digərlərinin nəzəri fikirlərində [11]. biz hüququn publik və xüsusi ("ius publicum" və "ius privatum") olmaqla iki hissəyə bölündüyünü görürük. Bu yanaşmanı Ulpianın Yustinian Məcəlləsində (D. 1.1.4) də istinad edilən, belə bir məhşur fikirləri ilə ümumiləşdirmək olar ki, "Publik hüququ – Roma dövlətinin mövqeyinə

(məsələlərinə – E.Q), Xüsusi hüquq – ayrı-ayrı şəxslərin işlərinə aiddir" *("Publicum ius est quod ad statum rei romanae spectat, privatum quod ad singulorum utilitatem")* [12].

Roma hüququ üzrə tanınmış mütəxəssislərdən biri olan, Alan Vatson qeyd edir ki, Roma hüququndan yazanlar və alimlər Roma xüsusi hüququna daha çox üstünlük verir və onun nüfuzlu dünyəvi bir hüquq sistemi olmasına məftundurlar [13, səh. 1]. Bununla əlaqədar Sisiron da daxil olmaqla bir sıra Roma hüquqşünaslarının belə bir fikrinə istinad edilir ki, "Əsl hüquq – xüsusi hüquqdur" [13, səh. 44]. Müvafiq olaraq, Sisereonun belə bir fikiri vurğulanır ki, "müharibə və sülh mövzuları da daxil olmaqla, dövlət və dövlət hüququnun cəlb olunduğu hüquqi məsələlərdə hüquqşünaslar ekspert deyillər" [13, səh. 44].

Təhlil etdikdə görürük ki, Roma hüququnun inkişaf dövrü əsasən post-klassik mərhələyə (e.ə. III – b.e. VI əsrlər) təsadüf edir. Bu mərhələdə hüquq sisteminin (xüsusən, Xüsusi hüququn) formalaşması və qanun yaradıcılığının inkişafı ayrıca diqqət çəkir. Həmin dövrdə, Roma hüququ yaradıcı potensialının zirvəsinə çatır, sistemləşdirilməsi baş verir və tədricən tükənmə dövrü başlayır. Roma hüququnun tam sistemləşdirilməsi isə eramızın VI əsrində Şərqi Roma İmperiyasında (Bizansda) həyata keçirildi. Bu Yustinian Məcəllələri (Külliyyatı) adlanan, dörd hissədən (bəzi müəlliflərə görə, Novellalar toplusu sayılmadan üç hissədən) ibarət böyük hüquq (qanunvericilik) külliyyatının ("Corpus İuris Civilis" – "Mülki hüquq toplusu") yaranması nəticəsində baş verdi.

Bu hüquq toplusunun başlanğıcında onun adı (həmçinin, məzmunu) – "Bizim müqəddəs şahzadəmiz cənab Yustinianın bütün qədim hüquqşünaslıqdan seçilmiş və tərtib edilmiş Digestalar və ya Pandektlər hüququ" *(lat. "Domini nostri sacratissimi principis Iustiniani iuris enucleati ex omni vetere iure collecti Digestorum seu Pandectarum)*" [13, səh. 44] kimi göstərilib.

Corpus İuris Civilis Roma mülkü hüququna, o cümlədən müqavilə hüququna böyük təsir göstərmişdi. Şərqi Roma (Bizans) imperatoru I Yustinianın (hakimiyyət dövrü – 527-565-ci illər), təşəbbüsü ilə 529-cu ildə məhşur hüquqşünaslar Tribonian (imperator dəftərxanasının rəhbəri) və Feofilin (Konstantinopol hüquq məktəbinin professoru) rəhbərliyi altında dövrün tanınmış hüquqşünaslarından ibarət komissiya, hüquqlar və qanunlar toplusunu əhatə edən məcəlləşdirmənin tərtibatına başladılar. Nəticədə, 533-cü ilin dekabr ayında Yustinian məcəlləşdirməsinin 50 kitabdan ibarət hüquqi mətnlər toplusu olan ən böyük həcmli hissəsi – "Digesta" (lat. Digesta – "toplanmış", "sistemə salınmış", "sıraya düzülmüş") və ya "Pandekt" (yun. Pandectae – "əhatəli", "hər şeyi birləşdirən"), daha sonra 4 kitabdan ibarət İnstitutlar (Roma hüququna dair sadə dərs vəsaiti) və 12 kitabda İmperator qanunlarından (konstitusiyalarından) ibarət – Məcəllə (hüquq külliyyatı) çap olunmuşdu.

Digestalar və ya Pandetlər külliyyatın ən həcmli hissəsi idi. Burada sistemli sitatlar toplusunu – ən məşhur Roma hüquqşünaslarının əsərlərindən çıxarışları təqdim edilir. Ümumilikdə, Digestalar I-V əsrlərin 39 tanınmış hüquqşünasının 2000-dək əsərindən 9200-ə qədər parçanı ehtiva edir və əksər hallarda tərtibçilər istifadə olunan əsərlərin başlıqları və hətta bölmələri haqqında kifayət qədər dəqiq təlimatlar verirlər. Bu, bir növ Roma hüquqşünaslığının ensiklopediyası idi [2, səh. 12-13].

Üzərində sonrakı dövrlərdə də iş aparılmış Digestalar bütövlükdə həm də strukturlaşdırılmış bəyanatlar və hüquqi müddəalar toplusudur. Burada bütün materiallar şərti olaraq yeddi hissəyə bölünürdü. Beləliklə, birinci hissədə (1-4-cü kitablar) – hüququn ümumi məsələlərindən və hüquq subyektləri – şəxslər haqqında doktrinadan, ikinci hissədə (5-11-ci kitablar) – "şəxslərin özlərinin və başqalarının əşyaları üzərində hüququ, mülkiyyətin qorunması", yəni, əşya hüququndan, üçüncü hissədə (12-19-cu kitablar) – ikitərəfli öhdəliklər və ya "qarşılıqlı etimad"dan yaranan öhdəliklərdən, dördüncü hissədə (20-27-ci kitablar) - öhdəliklərin təmin edilməsi, ailə və qəyyumluq hüquqlarının həyata keçirilməsi ilə bağlı müəyyən növ xərclər və öhdəliklərdən irəli gələn tələblər üzrə öhdəliklərdən, beşinci hissədə (28-36-cı kitablar) – vəsiyyətnamələrdən, altıncı hissədə (37-43-cü kitablar) – hakimin mülahizəsinə əsasən həll edilən müxtəlif hüquqi kolliziyalardan, yeddinci hissədə (44-50-ci kitablar) – əsasən, cinayət və publik hüquqla bağlı məsələlərdən bəhs edir. Sonuncu kitab köhnə hüquqi ifadələr, terminologiya, deyimlər, atalar sözləri və s. aiddir [2, səh. 12-13].

Digestalarda ayrı-ayrı müqavilə münasibətlərinin tənzimlənməsinin hüququ əsaslarını tənzimləyəcək kifayət qədər müddəalara rast gəlmək mümkündür. Belə ki, burada vərəsəlik və əmlak (5-11-ci kitablar), alqı-satqı (kitablar 12-19), girov (20-22-ci kitablar) ər-arvadın əmlakı (23-25-ci kitablar), qəyyumluq və himayəçilik (26-27-ci kitablar), vəsiyyət və qanuna görə varislik (28-38-ci kitablar), şifahi müqavilələr (45–46-cı kitablar) və s. məsələlərin tənzimlənməsinə xeyli yer verildiyini görürük.

Digestaların əksəriyyətini xüsusi hüquq normaları təşkil edirdi. Bundan əlavə, onlar müəyyən publik-hüquqi məsələləri tənzimləyir və eyni zamanda bir sıra ümumi hüquq prinsiplərinə dair anlayışları da əhatə edir.

Yustinianın hüquq külliyyatının digər bir elementi – Məcəllə (Codex) 117-ci ildən başlayaraq, yaradılmış 4600 İmperator konstitusiyasının 12 kitabda 765 başlıq (mövzu) altında sistemli şəkildə birləşdirir. Məcəllənin 1-ci kitabında kilsə hüququ mənbələri, habelə dövlət xidməti və məmurların vəzifələri, 2-ci kitabdan 8-ci kitabadək olan kitablarda əsasən, imperatorların mülki hüquq və məhkəmə icraatına dair aktları, 9-cu kitab – cinayət hüququ, 10-12-ci kitablar – dövlət idarəçiliyi, maliyyə və s. dair hökmləri əhatə edir. Sistemləşdirilərkən konstitusiyaların dərc olunma tarixləri və onları verən imperatorların adları saxlanılırdı. Ümumi yanaşmada mətnlər, ehtimal ki, dəyişməz saxlanılıb, lakin müqayisəli mətnlərin olmaması səbəbindən bu eyniliyi birmənalı olaraq mühakimə etmək mümkün deyil [2, səh. 12-13].

Şərqi Roma (Bizans) imperatoru Yustinianın küliyyatının üçüncü elementi olan və 533-cü ildə tələbələr üçün altı aylıq giriş kursu kimi təsdiqlənmiş – İnstitutların (lat. İnstitutiones – “ibtidai təqdimatlar”, “təlimatlar”, “təməllər”) strukturu bütövlükdə Qayın İnstitusiyalarının materiallarına uyğundur.

İnstitusiyalar dörd kitabdan ibarət idi. Birinci kitabda, Roma hüquq sisteminin ümumi xarakteristikası verilir, şəxslərin statusu müəyyən edilir, ailə hüququ müəyyən edilir. İkinci kitabda, əşyaları təsnif edilir, əmlak hüququ institutları – mülkiyyət, sahiblik, servitut, uzufrukt, həmçinin vəsiyyətnamədən bəhs edilır. Üçüncü kitabda, qanun üzrə vərəsəlik və öhdəliklər hüququndan, o cümlədən müxtəlif növ müqavilələrdən bəhs edilir. Dördüncü kitabda, hüquq pozuntularından (deliktdən) yaranan öhdəliklər, iddialar sistemi, məhkəmə prosesi və bəzi başqa məsələlər işıqlandırılır.

Yustinian külliyyatının şərti olaraq əlavə dördüncü hissəsi hesab edilən Novellalar toplusu (Novellae) artıq imperatorun 565-ci ildə ölümündən sonra xüsusi sistemləşdirmə fəaliyyəti ilə bağlı meydana gəlmiş, onun hakimiyyətinin mühüm bir dövrü (əsasən, 535-565-ci illər) ərzində hazırlanmış yeni qanunlardan ibarət idi. Ona görə də, bu sənəd Yustinian külliyyatının orijinal hissəsinə daxil deyildi. Lakin, bəzi müəlliflər Novellaları da Corpus İuris Civilis-in tərkib hissəsi hesab edərək göstərirlər ki, o, külliyyatın qalan hissəsi tamamlandıqdan sonra nəşr edildiyinə görə, uyğunsuzluqlar olduqda ona üstünlük verilməlidir [14].

Novellalardan üç kolleksiya salamat qalmışdır ki, onlardan birincisi 556-cı ildə tərtib edilmiş və 122 aktdan (konstitusiyadan) ibarətdir. Digər ikisi (134 və 168 aktdan ibarət olmaqla) VI əsrin ikinci yarısına aiddir. Novellalar imperator Yustinianın öz fərmanlarını (qanunlarını) ümumiləşdirməklə yanaşı, iri əyalət başçılarının (pretorların) ediktlərini də ehtiva edir. Ümumiyyətlə, onların məzmununun çox hissəsi əyalətlərin idarə edilməsinə və vərəsəliyə dair yeniliklərin xüsusiyyətlərinə aiddir. Bəzi tədqiqatçılar (məs., V. A. Smetanin) Novellaları Corpus iuris civilis-in bir hissəsi hesab etmirlər [15].

Beləliklə, Yustinian Külliyyatı (Corpus İuris Civilis) – Digestalar/Pandektlər (məhşur klassik Roma hüquqşünaslarının konkret hüquqi məsələləri ilə bağlı əsərləri (titul və fraqmentlər) külliyyatı), İnstitusiyalar (dörd kitabdan ibarət olmaqla, Qayın institusiyalara dair əsərlərinə əsasən, Roma hüququna dair tərtib olunmuş sadə tədris vəsaiti), İmperator Məcəlləsi (eramızın 117-ci ilindən I Yustinianın hakimiyyəti dövrünədək imperatorların sərəncamları (konstitusiyaları)), Novellalardan (I Yustinianın öz dövründə yaradılmış yeni qanunlardan) ibarət olmaqla tərtib edilmişdir. İmperatorun əmri ilə Külliyyata daxil edilən bütün elementlərə (o, cümlədən Digestalara) qanun qüvvəsi verilmişdi.

Qeyd edildiyi kimi, Roma hüququnun ən böyük sistemləşdirilməsi (Yustinian məcəlləşdirməsi) eramızın VI əsrində, 4 hüquq toplusunun (Digest, İnstitutlar, Məcəllə və Novellalar) yaradılması şəklində həyata keçirilmişdir. Bu sistemləşdirmə XII əsrdən (xüsusilə, resepsiya fəaliyyətləri başlayandan) sonra "Mülki Hüquq Məcəlləsi" və ya "Mülki Hüquq Külliyatı" adlanırdı.
Bu külliyyatı daha aydın təsəvvür etmək üçün onu təxminən cədvəl 1-dəki kimi göstərmək olar:

Cədvəl 1

**Yustinianın Mülki Hüquq Külliyyatı**
**(Corpus İuris Civilis)**

| İnstitutlar (4 kitabda) | Digestalar (Pandektlər) (50 kitabda) | İmperator Məcəlləsi (12 kitabda) | Novellalar (3 kitabda) |
|---|---|---|---|
| Roma hüququnun sadə (ilkin) əsaslarına dair sistemin təsviri: I kitab – şəxslər və ailə hüququ; II kitab – əşyalar və vəsiyyətnamə; III kitab – qanun üzrə vərəsəlik, öhdəliklər və müqavilələr; IV kitab – iddialar. | I-V əsrlər Roma hüquqşünaslarının əsərlərindən, yazılarından və çıxarışlarından parçalar toplusu. | İmperator konstitusiyaları toplusu: I kitab – kilsə hüququ, dövlət qulluqçularının vəzifələri; II-VIII kitablar - xüsusi hüquqa dair məsələlər; IX kitab – cinayət hüququna dair məsələlər; X-XII kitablar - inzibati hüquqa dair məsələlər. | Yustinian konstitusiyalarının (fərmanlarının) üç kitabdan ibarət toplusu: I kitab - 122 akt; II kitab - 134 akt; III kitab - 168 akt. |

Bu hüquq toplusu yaradılarkən, Qərbi Roma imperiyası "barbar"ların əlində olduğundan bu işlər Şərqi Roma imperiyasında – Bizansda aparılırdı. Məcəllə həmin vaxt imperiyanın rəsmi dövlət dili olan – latın dilində tərtib olunmuş, sonralar (VII əsrin əvvəllərində I İraklinin (I Heraclius) uzun sürən hakimiyyəti dövründə (610-641-ci illər) isə Bizansın əksər əhalisinin danışdığı yunanca rəsmi dövlət dili olduqda bu dilə də tərcümə edilmişdir.

Yustinian Külliyyatı hazırlanarkən əsas ideyalardan biri imperator hakimiyyətinin möhkəmləndirilməsi ilə yanaşı, qanunlarının vahidliyi, onlarda olan ziddiyyətlərin ləğv edilməsi, müəyyənliyin və aydınlığın təmin edilməsi, qanunların hüquqi mahiyyətinin gücləndirilməsi, onu səmərəsiz köhnə qanunlardan təmizləmək və tələb olunan yeni norma və müddəalarla zənginləşdirilməsi idi. Bunun üçün əvvəlki məcəlləşdirmələrdə (Məsələn, II Feodosiyanın dövründə (438-ci ildə) olduğu kimi, yalnız imperator qanunları ("leges") deyil, həm də klassiklərin hüquq sahəsində əsərləri, traktatları, fikirləri ("ius") da əsas mətnə daxil edilmişdir.

Yustinian Külliyyatı köhnə Roma hüququnu yeniləyərək, hüququn təbii sələflərdən gələn mahiyyətini bu prosesdə itirilməməsini təmin etdi. Bu cür dəyişiklik, mükəmməl və qüsurlu yeniləmə arasında fərqi ortaya çıxarmış oldu [16].

Roma hüququnun daha sonrakı məcəlləşməsində ən mühüm hadisələr – VIII əsrdə III Leon İsavrın imperatorluğu dövründə (717-741-ci illər) yeni məcəllənin (Ekloqanın) nəşri, IX əsrdə isə İmperatorlar I Vasili (836-886-cı illər) və VI Müdrik Leonun (886-912-ci illər) hakimiyyətləri dövründə Yustinian məcəllələrinin tərkib hissələrinin (Məcəllə və Digestanın) yunan dilinə tərcümə olunaraq, birləşmiş şəkildə – Bazilika kimi təqdim edilməsi oldu. Roma hüququ əsasən, Yustinian məcəllələri və Bazilikada əks olunmaqla, Bizans qanunvericiliyinin əsasını təşkil edirdi. Hətta imperiyanın türklər tərəfindən fəthindən (1453-cü il) və süqutundan sonra da bu qanunlar Yunanıstanda və Şərqi Pravoslav Kilsəsinin məhkəmələrində hüquqi təcrübənin əsası olaraq qalırdı.

Yustinianın Mülki Hüquq Külliyyatının adı XIII əsrdən sadəcə "corpus iuris" deyil, "corpus iuris civilis" kimi məlumdur ki, bu da onun kanon (kilsə) hüququ məcəlləsindən ("Corpus iuris canonici") fərqli olaraq dünyəvi xarakterini ifadə etmək üçün vacib idi [17].

Corpus iuris civilis-in ilk çap nəşrləri əlyazmaların nöqsanlarını təkrarlayırdılar, ona görə də onlar o zaman qəbul edilmiş bölgüyə uyğun olaraq 5 cilddən ibarətdir. Bir sıra nəşrlərdə indekslərlə birlikdə 6 cilddə verilmişdir.

Corpus iuris civilis-in bütün 5 cildinin birinci nəşri – 1477-1478-ci illərdə Venesiyada çap edilmişdir. Ümumilikdə, 1800-cü ilədək külliyyat tam şəkildə 200 dəfə nəşr edilmişdir. Bundan sonra humanistlərin fəaliyyəti sayəsində Corpus iuris civilis-in ayrı-ayrı hissələrinin yeni tənqidi nəşrləri meydana gəlmişdir. Külliyyatın "Corpus iuris civilis" ümumi adını almış ilk məcmu nəşri D. Qotofredin 1583-cü ildə etdirdiyi nəşri hesab olunur. Bu mətn heç bir tənqidi yanaşma, düzəliş və dəyişiklik edilmədən dəfələrlə təkrar nəşr olunmuşdur [17].

Bizans dövründə Roma hüququ həmin vaxtadək bütün dünya hüquq tarixində ən tam və prinsiplərinə görə demək olar ki, klassik məcəlləşməni – Yustinianın Mülki Hüquq Külliyyatı (Corpus iuris civile) adlanan hüquq mənbəyini əldə etdi. Hüquq institutları üçün maddi və formal əhəmiyyətindən əlavə, bu məcəlləşmə xüsusi siyasi-hüquqi rolu – onun sonrakı dövrlər üçün yeganə olmasa da, dövlət orqanları tərəfindən təsdiq edilmiş hüququn sözsüz prioritet mənbəyi olan, Qanunu külliyyatı funksiyasını yerinə yetirməsidir [2, səh. 5].

Bizans tipli yeni məcəlləşdirilmiş Roma hüququ – xüsusilə Yustinian Məcəlləsi və onun Novellaları, hüquqi mədəniyyətin tamamilə yeni bir sahəsinin - xüsusi hüquqi abidə ənənəsi olan pravoslav kilsə hüququnun (Nomocanons) formalaşması üçün əsas oldu. Bu mənbə, xüsusi tənzimləmə sahələri, xüsusi institutları ilə bu günə qədər də fərqli bir zamanın daralmış yurisdiksiya şəraitində dəyişdirilmiş, yenilənmiş, deformasiya edilmiş formada yaşamağa davam edir [2, səh. 5].

Tarixən Qədim Romada qanunlar, aid olduğu sosial qrupa, qəbul olunma formasına, qəbul edən instansiyaya və s. görə müxtəlif kateqoriyalara (ius civile, ius gentium, ius naturale, ius scriptum, ius non-scriptum, ius commune, ius singulare, ius publicum, ius privatum) bölünürdü. Müxtəlif tarixi, sosial-iqtisadi, ictimai-siyasi və mülki münasibətlər şəraitində meydana çıxmış bu hüquq növlərinin (kateqoriyalarının, sistemlərinin) məzmununu anlamadan ümumilikdə Roma hüququnun, o cümlədən publik hüququn və xüsusi hüququn ayrı-ayrı sahələrinin mahiyyətini anlamaq və inkişaf yolunu izləmək çətin olardı. Ona görə də, yaranma dövrü, səbəbi, məqsədi, təsir dairəsi, forması, qəbul edən orqan və s. xüsusiyyətlərinə görə Romada mövcud olmuş qanunların təşkil etdikləri hüquq növlərinin növbəti cədvəl 2-dəki kimi bölmək olar:

Qeyd olunmalı digər bir məqam qədim Roma hüququnun yenidən kəşf edilməsi, resepsiyası (xüsusən XII əsrdən sonra), yeni qanunvericiliyə implementasiya edilməsi və XIX əsrə qədər bəzi Avropa ölkələrində yayılması ilə əlaqədardır. Bu dövr qanunların yaranması, inkişafı, onların yaradılmasında iştirak edənlərə və mənbələrə xüsusi diqqət yetirilməsi ilə daha çox bağlıdır.

Cədvəl 2

| **Qədim Roma hüququnda mövcud olmuş hüquq növləri** | |
|---|---|
| **Hüquq növlərinin adı** | **Hüquq növlərinin məzmunu** |
| 1 | 2 |
| 1. İus civile (ius civile Quiritium) – ("mülki (vətəndaş, kvirit) hüquq") | Roma vətəndaşlarına ("Praetores Urbani" – şəhər əhalisinə, kviritlərə) tətbiq olunan ümumi qanunların məcmusu idi. |
| 2. İus gentium – ("xalqlar hüququ") | Xaricilərə (Praetores Peregrini) və onların Roma vətəndaşları ilə münasibətlərinə tətbiq olunan ümumi qanunların məcmusu idi. |
| 3. İus naturale – ("təbii hüquq") | Bütün canlı varlıqlar ümumi ehtiva edən hüquq anlamında işlədilirdi. |
| 4. İus honoraruum – ("Pretor hüququ") | Pretor (Magistr) hökmləri əsasında formalaşmış qanunvericilik külliyyatına əsaslanırdı. |
| 5. İus scriptum – ("yazılı hüquq (qanunlar)") | Qanunverici orqan tərəfindən qəbul edilmiş qanunların və qanun qüvvəli aktlar qəbul edən şəxslərin qərarlarının məcmusu idi. Bu qanunlara aşağıdakılar daxil idi:<br>1. Leges (lat. "Qanunlar") – Senat tərəfindən qəbul olunan qanunlar.<br>2. Plebisita (lat. Plebey Şuralarında yaranan mənasında) – Plebey Şuralarında qəbul olunan qanun və qərarlar.<br>3. Magistratuum edicta – magistrantların (Pretorların) qərarları. |

| | |
|---|---|
| | 4. Senatus consulta – senatın tövsiyələri.<br>5. Responsea prudentium – hüquqşünasların suallara cavabları və hüquqi düşüncələri.<br>6. Principum placita – imperatorun müvafiq şərhləri və fikirləri. |
| 6. İus non-scriptum (“yazılmayan hüquqi (qanunlar)”) | Adət təcrübəsindən yaranmış və zaman keçdikcə məcburi xarakter almış ümumi qanunların (normaların) məcmusu. |
| 7. İus singulare (“tək (ayrıca, məxsusi) hüquq”) | Müəyyən qrup insanlar, əşyalar və ya hüquqi münasibətlər üçün olan xüsusi qanundur ki, o da, ümumi və adi, qanundan *(ius commune)* fərqlənirdi. Buna misal olaraq, hərbi qulluqçuların hərbi yürüşlər zamanı yazdığı vəsiyyətnamə haqqında qanunu göstərmək olar. Bu vəziyyətdə hərbçinin yazdığı vəsiyyətnamə adi şəraitdə vətəndaşların yazdığı vəsiyyətnamə üçün tələb olunan formallıq və təntənədən azad idi. |
| 8. İus commune (ümumi hüquq) | Bütün insanlar, əşyalar və ya hüquqi münasibətləri üçün nəzərdə tutulan hüquq idi. Bu ifadə özündə ius civile, ius jentum və ius naturale-ni birləşdirir. |
| 9. İus privatum (“xüsusi hüquq”) | Ayrı-ayrı şəxslərin şəxsi, əmlak, mülki və s. münasibətlərini tənzimləyirdi. Roma hüququnda hətta cinayət hüququ *ius privatum*-a daxil idi. Məhkəmə araşdırması xüsusi proses (iudicium privatum) idi. Dövlət tərəfindən təqib olunan ən ağır (dövləti) cinayətlər istisna olmaqla, cinayətlər də xüsusi hesab olunurdu. İştirakçıların razılığı ilə dəyişdirilə bilən bu qaydalar bu gün müəyyən fərqlər və istisnalarla*“ius dispositivum”* adlanır. |
| 10. İus publicum (“publik hüquq”) | Dövlətlə vətəndaş arasında münasibətləri tənzimləyən ümummәcburi hüquq normalarının məcmusu (məcburi tənzimləmələri təsvir etmək üçün istifadə edilmiş anlayış) idi. Bunlar tərəflərin razılığı ilə dəyişdirilə və ya ləğv edilə bilməyən təməl qaydalar idi. |

Roma hüququ XVIII əsrin sonlarına qədər Qərbi Avropanın əksər hissəsində tətbiq olunan hüquq sistemində geniş istifadə edilirdi. Almaniyada Roma hüquq təcrübəsi Müqəddəs Roma İmperiyasının bütün dövrü (963-1806-ci illər) ərzində qüvvədə olmuşdur. Beləliklə, Roma hüququ Avropa qitəsində, eləcə də Latın Amerikası və s. yerlər də daxil olmaqla, əksər keçmiş Avropa koloniyalarında hüququn əsas mənbəyinə çevrilmişdi.

Roma hüququ ingilis ümumi hüququna da müəyyən təsirini göstərmişdir [18]. Bunu xüsusən, bu hüquq sistemində istifadə olunan prinsiplər, terminlər və latın dilli hüquqi lüğət tərkibindən (məsələn, pacta sunt servanda (“müqavilə icra olunmalıdır”), stare decisis (“əvvəlki məhkəmə qərarına uyğunluq”), culpa in contrahendo (“müqavilə bağlanmazdan əvvəl buraxılmış səhvə (qüsura) görə məsuliyyət”) və s.) və bir sıra hüquq institutlarından görmək olur.

Beləliklə, xüsusi hüququn Qədim Romada o dövrə qədər ən yüksək inkişaf səviyyəsinə çatdığını görürük. Müqavilələrin cəmiyyət həyatının müxtəlif sahələrini daha ətraflı və dəqiq tənzimləməsi, təkmil təsnifləşməsi, qədim və antik dövr tarixində ən yüksək səviyyəsinə məhz Roma hüququnda çatdığını görürük. Qədim Roma hüququ sonrakı dövrlərin müxtəlif dövlətləri tərəfindən dəfələrlə qəbul edilmiş prinsip, müddəa, norma, qanun, müqavilə və s. hüquq institutlarının inkişafına kömək etmiş və etməkdədir.

Ümumiyyətlə, araşdırma göstərir ki, Qədim Roma hüququnun yaranması və inkişafı Roma dövlətinin inkişafı ilə eyni vaxtda baş vermişdir. Roma hüququnun əsas məzmununun resepsiyası (mənimsənilməsi) müasir hüququn (o cümlədən, mülki hüququn, kommersiya, müqavilə, əmlak və s.) formalaşmasına, eyni zamanda ümumi hüquq nəzəriyyəsinin inkişafına əhəmiyyətli təsir göstərmişdir. O, həmçinin, bir çox hüquq sahələrinin (o cümlədən, müqavilə hüququnun) yaranması, inkişafı, anlayış və institutlarla zənginləşməsi üçün mühüm mənbə rolunu oynamışdır.

## ƏDƏBİYYAT

1. Lorena Atzeri. The Origin, Development, and Persistence of Roman Law through the Modern World. 2017. https://brewminate.com/the-origin-development-and-persistence-of-r
oman-law-through-the-modern-world/

2. Романовская В. Б., Курзенин Э. Б. Основы римского частного права. http://window.edu.ru/resource/539/24539/files/1136998.pdf.
3. https://www.catholicity.com/encyclopedia/l/law,roman.html
4. Jenő Szmodis. The Reality of the Law – From the Etruscan Religion to the Postmodern Theories of Law. Ed. Kairosz. Budapest, 2005. Pages. 7-12.
5. Scott S.P. The Civil Law. In Seventeeen Volumes. Vol I. The Twelve Tables. Cincinnati. USA. 1932. P. 5.
6. Alan Watson. The Digest of Justinian. Vol.1. Book 1. University of Pennsylvania Press. Philadelphia. USA. 1998. P. 1. (D.1.1.1.3).
7. Alan Watson. The Digest of Justinian. Vol.1. Book 1. University of Pennsylvania Press. Philadelphia. USA. 1998. P. 1. (D.1.1.1.4).
8. Alan Watson. The Digest of Justinian. Vol.1. Book 1. University of Pennsylvania Press. Philadelphia. USA. 1998. P. 1. (D.1.1.6).
9. Исайчевой Е. А. Шпаргалка по римскому праву. ЮРАЙТ. М. 2010. Стр. 68.
10. Adolf Berger, Encyclopedic Dictionary of Roman Law (Transactions of The American Philosophical Society, Vol. 43, Part 2). Philadelphia. The American Philosophical Society. USA. 1953. P. 90-93.
11. http://www.bibliotekar.ru/rimskoe-pravo-2/2.htm
12. R.C. van Caenegem. A Historical Introduction to Western Constitutional Law. Cambridge University Press. UK. 2003. P. 1.
13. Alan Watson. The Spirit of Roman Law. The University of Georgia Press. Athens. USA. 1995.
14. Савиньи Ф. К. Система современного римского права. Статут. М. 2011. Стр. 510.
15. Сметанина В. А. Избранные новеллы Юстиниана. Вводная статья, перевод и комментарий. Издательство Уральского университета, Екатеринбург. 2005. Стр. 340.
16. Charles G. Herbermann and Co. The Catholic Encyclopedia, Volume 1: Aachen-Assize. In Fifteen Volumes. Volume 1. New York. 1917. P. 404. http://oa.lib.ksu.edu.tw/OA/bitstream/987654321/197085/2/cathen01.pdf
17. Silvestrova Elena. Corpus iuris civilis. https://www.academia.edu/17150927/corpus_iuris_civilis. P. 156.
18. Sriram K. Roman Impact on Common Law: Legend or Legacy. https://www.jstor.org/stable/44308382

**REFERENCES**

1. Lorena Atzeri. The Origin, Development, and Persistence of Roman Law through the Modern World. 2017. https://brewminate.com/the-origin-development-and-persistence-of-r
oman-law-through-the-modern-world/
2. Romanovskaya V.B., Kurzenin E. B. Osnovi rimskogo chastnogo prava. http://window.edu.ru/resource/539/24539/files/1136998.pdf.
3. https://www.catholicity.com/encyclopedia/l/law,roman.html
4. Jenő Szmodis. The Reality of the Law – From the Etruscan Religion to the Postmodern Theories of Law. Ed. Kairosz. Budapest, 2005. Pages. 7-12.
5. Scott S.P. The Civil Law. In Seventeeen Volumes. Vol I. The Twelve Tables. Cincinnati. USA. 1932. P. 5.
6. Alan Watson. The Digest of Justinian. Vol.1. Book 1. University of Pennsylvania Press. Philadelphia. USA. 1998. P. 1. (D.1.1.1.3).
7. Alan Watson. The Digest of Justinian. Vol.1. Book 1. University of Pennsylvania Press. Philadelphia. USA. 1998. P. 1. (D.1.1.1.4).
8. Alan Watson. The Digest of Justinian. Vol.1. Book 1. University of Pennsylvania Press. Philadelphia. USA. 1998. P. 1. (D.1.1.6).

9. İsaychevoy E.A. Shparka po rimskomu pravu. URAIT. M. 2010.str. 68.
10. Adolf Berger, Encyclopedic Dictionary of Roman Law (Transactions of The American Philosophical Society, Vol. 43, Part 2). Philadelphia. The American Philosophical Society. USA. 1953. P. 90-93.
11. http://www.bibliotekar.ru/rimskoe-pravo-2/2.htm
12. R.C. van Caenegem. A Historical Introduction to Western Constitutional Law. Cambridge University Press. UK. 2003. P. 1.
13. Alan Watson. The Spirit of Roman Law. The University of Georgia Press. Athens. USA. 1995.
14. Savin'i F.K. Sistema sovremennogo rimskogo prava. Statut. M. 2011. Str. 510.
15. Smetanina V.A. İzbranniye novelli Yustiniana. Vvodnaya statya, perevod i kommentariy. İzdatelstvo Uralskogo universiteta, Yekaterinburg. 2005. Str. 340.
16. Charles G. Herbermann and Co. The Catholic Encyclopedia, Volume 1: Aachen-Assize. In Fifteen Volumes. Volume 1. New York. 1917. P. 404. http://oa.lib.ksu.edu.tw/OA/bitstream/987654321/197085/2/cathen01.pdf
17. Silvestrova Elena. Corpus iuris civilis. https://www.academia.edu/17150927/corpus_iuris_civilis. P. 156.
18. Sriram K. Roman Impact on Common Law: Legend or Legacy. https://www.jstor.org/stable/44308382

## *THE MAIN SOURCES OF ANCIENT ROMAN PRIVATE LAW*

***Gojayev E.A.***
***Baku State University***

*The article shortly analyzes the history, sources, causes, conditions, essence and characteristic features of the formation of Ancient Roman law (including contract law). In order to investigate the topic, the author involved a number of related information and sources that appeared in Ancient Rome and Byzantium in chronological order.*

*The main sources of Ancient Roman law - Quirite law, Law of the Twelve Tables, Praetorian law, Corpus Iuris Civilis of Justinian I, other legal documents, theoretical and practical ideas, their content, causes of emergence, characteristics and differences are reviewed here. In the article, special attention is paid to the analysis of the constituent elements of Justinian's Corpus İuris Civilis, the most advanced collection of documents of Ancient Roman law, and finally, the types of laws that existed in Ancient Roman law are classified.*

***Keywords:*** *Ancient Rome, law, contract, obligations, custom, Quirite law, Law of the Twelve Tables, Plebiscite, post-classical period, Private law, praetorian law, Justinian I, "Corpus Iuris Civilis", types of law.*

***Rəyçi: h.e.d. Rüstəmzadə A.X.***

***Müəllif haqqında məlumat***

| Soyadı, adı, atasının adı | İş yeri | Vəzifəsi, elmi dərəcəsi, elmi adı | Əlaqə |
|---|---|---|---|
| Qocayev Eldar Adıgözəl oğlu | Bakl Dövlət Universiteti | BDU-nun Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının doktorantı, h.f.d. | egojayev@gmail.com; qocayeveldar@bsu.edu.az mob. (+994) 50 325 41 25 |